

# Tarix, Vətən və əcdadlar qarşısında varislik missiyası

## *Yenə də haqq və ədalətlə...*

**O, üzərinə düşən bütün missiyaları yüksək səviyyədə yerinə yetirməyin parlaq nümunəsini yaratmışdır. Bütün vəzifələri ən ali məsuliyyətlə yerinə yetirmişdir və yetirir. Milli tariximizin ən böyük simalarından olan Heydər Əliyevin qarşısındakı övladlıq, səsini və etimadını qazandığı milyonlarla seçici qarşısındakı prezidentlik, müxtəlif səbəblər üzündən dünyanın hər tərəfinə səpələnmiş soydaşlarımız üçün liderlik, beynəlxalq aləmdəki dost və tərəfdaşlarımızla münasibətdə səmimi olmaq missiyasını necə icra edibsə, bütün dünya görür.**

**(ardı 5-ci səhifədə)**

# Tarix, Vətən və əcdadlar qarşısında varislik missiyası

***Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox, biz bunu sülh yolu ilə etmək istəyirik.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



*(əvvəli 1-ci səhifədə)*

O, indi isə, təxminən, bir əsrdən artıq müddətdə xalqımıza üzqaralığı gətirən bir ədalətsizliyin aradan qaldırılması missiyasını öz üzərinə götürdü. Həmin məsələ ortaya çıxan kimi dövlət başçımızın yeni çağırışına münasibət bildirən obyektiv fikirli əcnəbi ekspertlər yazdılar ki, burada heç bir qərəzli siyasətdən, son iki əsrdə azərbaycanlılara qarşı dəfələrlə dəhşətli dərəcədə ağır cinayətlər, soyqırımı, işğal, talançılıq, barbarlıq törətmiş ermənilərdən qisas almaq istəyindən söz gedə bilməz. İlham Əliyev sadəcə bir xalqın tarixinə yazılmış ədalətsizliyin bərpasına çağırır. Həm də bu çağırış təkcə ölkə əhalisinə və ya barbar qonşular tərəfindən zərərdidə edilmiş insanlara deyil, bütün dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, əcnəbi hüquqşünaslara ünvanlandığına görə, burada ədalətin bərpasına cəhd etməkdən başqa heç nə axtarmaq mümkün deyil.

### Ədalət, ah ədalət...

Söhbət Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olması və orada həmin ərazilərimizdən olan bir qrup ziyalı ilə görüşdə dünyadakı bütün soydaşlarımızın ürəyindən xəbər verən fikirlər səsləndirməsindən gedir. Mən həmin tədbir haqqında hazırlanmış qəzet materialını oxuyanda türk dünyasının iki böyük simasının, tarixi şəxsiyyətin ruhuna Allahdan rəhmət dilədim.

Birinci böyük şəxsiyyət İhsan Doğramacı idi. O, Bakıdakı çıxışlarından birində azərbaycanlı məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasının ləngiməsi barədə danışarkən demişdi ki, tarixi ədalətin bərpa edilməsi həmişə asanlıqla başa gəlmir. Bunun üçün bəzən bütöv əsr, bəzən bir neçə nəslin dəyişməsi lazım olur. Ruhuna rəhmət oxuduğum ikinci böyük insan isə ulu öndər Heydər Əliyev idi. O, qaçqın və məcburu köçkünlərlə görüşdə demişdi ki, bizim mübarizəmizin haqlı olduğunu, bəlkə də, dünyada hamı bilir və çoxları susurlar. Ona görə də, ədalətin bərpası üçün tarixi zəmin olmalıdır. Ümummilli liderimiz inanırdı və məcburi köçkünləri də inandırmağa çalışırdı ki, bir vaxt gələcək və biz öz torpaqlarımıza qayıdacağıq.

Həmin tarixi zəminin yaradılması missiyası isə Prezident İlham Əliyevin çiyninə düşdü və biz öz tarixi torpaqlarımıza qayıtdıq. Ancaq hələ torpaqlarımızın hamısına yox, BMT tərəfindən müstəqil Azərbaycan Respublikasının ərazisi kimi tanınmış torpaqlarımıza qayıda bilmişik. Hamı bilir ki, bəzi ərazilərimizdəki erməni tör-töküntülərinin, vardanyanların və Rusiya sülhməramlılarının mövcudluğu müvəqqətidir və onlar mütləq Azərbaycan dövlətinin qanunlarına tabe ediləcəklər.

Bütün bunlar bizim tarixi torpaqlarımıza qayıdışı təmin etmək üçün düşündüyümüz məramnamənin minimum məqsədi idi və ona artıq nail olmaq üzrəyik. Bu istiqamətdə olan maksimum məqsədimizin konturlarını isə dövlət başçımız dekabrın 24-də çox böyük inam və əminliklə bəyan etdi.

### Biz Ermənistana qarşı ərazi iddiası etmirik...

Dövlət başçımız açıq şəkildə söylədi ki, biz bu məqsədə çatmaq üçün kiminsə güman etdiyi kimi hansısa hərbi əməliyyata, silahlı qarşıdurmaya əl atmayacağıq. Biz öz əzəli torpaqlarımıza qayıtmaq üçün tarixi dəlil-sübutlardan, danılmaz faktlardan, beynəlxalq hüquqdan və mütərəqqi təfəkkürlü dünya ziyalılarının fikirlərindən istifadə edəcəyik.

Prezident tövsiyə edir ki, bütövlükdə, XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir. Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn on minlərlə əcnəbi bu gün öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb: "Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik".

Qarşıda duran vəzifələrdən biri də ondan ibarətdir ki, Qərbi Azərbaycan İcması diplomatlarımızın və diaspor təşkilatlarımızın köməyi ilə xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurmalıdır. Yəni, biz haqlı olaraq öz hüququmuzu tələb etməliyik. Bu, bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur.

### Düşmən bizim tarixi irsimizi silməyə nail ola bilmədi

Nə üçün silə bilmədi? Çünki əvvəlcə ulu öndər Heydər Əliyev, sonra isə Prezident İlham Əliyev bütün çıxış və nitqlərində, görüş və ya müsahibələrində– az qala hər gün dünya ictimaiyyətinin nəzərinə çatdırırdılar ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıb. Heydər Əliyev həmin işi tarixi sənəd-sübutlarla yerinə yetirirdisə, İlham Əliyev beynəlxalq hüququn norma və prinsipləri əsasında, diplomatiya dili ilə, siyasi qətiyyətlə hamıya sübut edir ki, həmin torpaqlar min illər boyu bizim əcdadlarımızın yurd-yuvası, məskəni, Vətəni olmuşdur.

Prezident dekabrın 24-də növbəti dəfə xatırlatdı ki, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq, əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var.

Ermənilərin hər addımbaşı istinad etmək istədiyi Avropa və Rusiya tarixçilərinin, eləcə də, digər mütəxəssislərin XX əsrin əvvəllərində tərtib etdikləri xəritələr göstərir ki, Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir. Biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb: "İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır".

### Görülmüş işlər az deyil

Həmin gün dövlət başçısına məlumat verildi ki, Qərbi Azərbaycan İcması 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988–1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. 1988–1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov xatırladı ki, bizə tarixi torpaqlarımıza qayıtmaq uğrunda apardığımız mübarizədə yeni güc verən sənədlər mövcuddur. Belə ki, bu mübarizənin təməli ulu öndər Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "Deportasiya haqqında" və 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" tarixi fərmanları ilə qoyulmuşdur. Bu mübarizəni davam etdirmək, sona çatdırmaq hər birimizin vətəndaşlıq borcu və ulu öndərin ruhu qarşısında övladlıq borcumuzdur.

### Dövlət başçımız bu dəfə də əmindir

İllər boyu "Gün gələcək, biz Qarabağa qayıdacağıq" – deyə əminlik ifadə edən və həmin məqsədinə çatan Prezident İlham Əliyev dekabrın 24-də daha bir əminliyini dilə gətirdi: "Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar: "Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**